# AZƏRBAYCAN RESPUBLIKASI ƏRAZISINDƏ MALYARIYA ILƏ MÜBARIZƏ TƏCRÜBƏSI

Xələfli X.N., Vəkilov V.N., Zeynalova N.M.

*Azərbaycan Tibb Universiteti. Epidemiologiya kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** 1102, Bakı, 20 yanvar küç. 10, mən. 26 email:khalaphli@mail.ru

# FIGTING EXPERIENCE OF MALARIA IN THE REPUBLIC OF AZERBAIJAN

Khalafli Kh.N., Vakilov V.N.,. Zeynalova N.M

*Azerbaijan Medical University. Department of Epidemiology. Baku, Azerbaijan*

Publication date: December 2019

Contact information: 1102, Baku, 20 january str. 10, app. 26 email:khalaphli@mail.ru

Respublikaya malyariyanın gətirilməsi ehtimalı xeyli yüksəkdir, belə ki, dünyanın 100-dən artıq ölkəsində bu infeksiya ilə xəstələnmə qeydə alınır.

**Tədqiqat işinin məqsədi**: Azərbaycan Respublikası ərazisində malyariya ilə mübarizə təcrübəsinin öyrənilməsi olmuşdur.

**Tədqiqat işinin material və metodları.**

İşdə qarşıya qoyulan məsələlərin həlli epidemioloji, statistik müayinə metodlarının tətbiqi ilə kompleks şəkildə həyata keçirilmişdir. Xəstələnmənin vəziyyətini öyrənmək üçün dövlətin və idarələrin statistik hesabatlarının əsasında dinamikada parazitar xəstələnmənin statistik hesabatları təhlil edilmişdir.

**Tədqiqat işinin nəticələri.** Malyariya ilə xəstələnmənin ciddi təhlükəni nəzərə alaraq respublikanın Səhiyyə Nazirliyi tərəfindən malyariyanın iri epidemiyasının qarşısının alınması üzrə lazımi tədbirlər görülmüşdür. Birinci mərhələdə (1981-1982-ci illər) bütün səylər iri epidemiyaların söndürülməsinə, ikinci mərhələdə isə (1983-1985-ci illər) – qalıq ocaqlarının ləğv edilməsinə və malyariyanın tam və davamlı ləğvinə nail olmaq üçün ilkin şərtlərin yara-dılmasına yönəldilmişdir. Malyariya əleyhinə müalicə-profilaktika tədbirləri aparıcı yer tuturdu. Keçən illərdən fərqli olaraq, əsas səy genişmiqyaslı mövsümi kimyəvi profilaktikanın aparılmasına yönəldilmişdir. Sonrakı illərdə respublikada malyariya üzrə vəziyyət olduqca qeyri-sabit qalmaqda davam edirdi və hər il malyariyanın çoxlu sayda hadisələri qeyd olunurdu. 90-cı illərdə siyasi və sosial-iqtisadi dəyişikliklərin nəticəsində malyariya əleyhinə fəaliyyətin kəskin zəifləməsi, hidrotexniki və meliorasiya tədbirlərinin aparılmasının tam dayandırılması və əhalinin miqrasiyası Azərbaycanda malyariya üzrə vəziyyəti xeyli ağırlaşdırdı və xəstələnmənin kəskin artmasına sıbəb oldu. Hazırki dövrdə ölkədə malyariogen vəziyyəti sabit hesab etmək olar. Aparılan genişmiqyaslı tədbirlərin və daimi diqqətin sayəsində qısa müddət ər-zində epide-mioloji gərginliyin aradan qaldı-rılmasına nail olunmuşdur. Bununla əlaqədar olaraq, hazırda bütün tədbirlər malyariyanın qalıq ocaqlarının sağlamlaşdırılmasına yönəl-dilmişdir. Qeyd etmək lazımdır ki, əvvəlki illərdə malyariya ilə mübarizə sahəsində əldə olunmuş təcrübəyə əsasən hazırda, respub-likada yaranmış müvəffəqiyyət və xəstələn-mənin ləğv olunması heç də malyariya əley-hinə kompleks tədbirlərin həcminin azaldıl-masına əsas vermir.